

## *ADİLET ZARILBEKOĞLU*
(АДИЛЕТ ЗАРЫЛБЕК УУЛУ) –

*1993-cü ildə Qırğz Respublikası
Narın bölgəsinin Ağ Talaa elinin
Konorçok kəndində doğulub.
2016-cı ildə Qırğız Milli Universitetinin
Məktəbəqədər təhsil fakultəsini bitirib.
Uluslararası "Nur borbor" Yaradıcı Gənclər Akademiyası
nəzdində fəaliyyət göstərən
Canı Tolkun Ədəbi Klubunun üzvüdür.
"Gərəkli ömür" adlı şeirlər kitabı gün üzü görüb.*

***

Yol olsun... yolçuyam, yollarda varam,
Nağıltək düşüncə, xəyallardayam.
Torpaq anamızın izinə düşüb,
Qulağa xoş gələn bir sədadayam.

Məqsədlər bənzəməz biri-birinə,
Bələdəm həyatın sirri-sehrinə;
Məni yollar yorsa, qalan yolçular,
Yola davam edib, gözləməsinlər..!

Ucu-bucağı yox, yoldu sonacan,
Ömrün bu başından - o başınacan...
Onun azı-çoxu, günah-savabı,
Ölçülər yolçunun öz məramıncan...

Axır,
        gedib çıxar ömür sürənlər
Cənnət, cəhənnəmə eyni yol ilə...

***

Ah... o qız bir daha geri dönmədi,
Hökmü beləydimi təmiz diləyin?
Qaysı çiçəkləri nə qədər gözəl...
Ömrün gül açması bundan beləydi.

Nə qədər çarpışdı ağılla ürək,-
Həqiqət edəlim yalan dünaynı.
Buluşalım qaysı çiçəkləyəndə,
Ömür gül açanda ayrılmayalım.

***

İtkinin izinə düşmək kimidir,
Ötən aya, ilə yenidən dönmək.
Yanlışdan-yanlışa yollar arayıb,
Mən də o illərə qayıtdım, demək.

İkiyə bölündü burada dünya,
Bəxtsizliklə bəxtdi – durub qayğılı… –
Burada anladım dünya genişmiş,
Burdaymış dünyanın əsil darlığı…

Tale yolu əzəlindən bəlliykən,
Yol başlayan yola vardı heç nəsiz.
Sən var ikən mənə gərək olanlar,
İndə mənə gərəksizdi, gərəksiz.

Böyük dərdlər qəfil gələr, həm də ki,
Arzu, istək, fikir almaz eyninə.
Gedəcəyin, getdiyin yol dolanbac,
Bir kabusdur ömür mənim əynimə…

## *BAZAR GÜNÜ*

Bazar günü –
azadlığın simgəsi.
Həyatın bağını açarıq,
Könlümüz sevənlərlə
Könlümüz sevdiyincə
uçarıq.
Buluşarıq sevgiliylə;
Əl sevinər dost əliylə.

Bazar günü –
Ən bərəkətli vaxt.
Doyunca uyudum, yuxum aldandı,
Ömrü istədiyin kimi xərcləməyə
imkandı.
Gəncliyim qaça-qovdu,
Yaxşı işsə bəlli olur
yolçuluqda…

Bazar günü –
Buluşmalar davam edər.
Ən maraqlı halı budur,
Danışmaqla sözlər bitməz,
Sevişməyə gözlər yetməz.
Taleyə tale qatarıq
biz gedərilər...

Bazar günü –
Xəyallarda xatırlaram;
İndi keçdiyimiz küçəylə
Qızımızın, oğlumuzun
  əlindən tutub,
Onları oynatmağa gedərik.
Azad eşqdən bəhs edərik.
Dostlar gəlincə bizə
  yaşayarıq,
Və hər zaman gözləyərik
            bazar gününü.

Bazar günü –
Səbəbimsən sən.
Fikirlərin doğrusu səndə,
Yolların sonu səndə.
Günlərin sultanısan,
fikirlərin mayası...
Ruzi paylayıb duran
Hər dəfə adı dəyişən
bayramımızsan!

Bazar günü...

(Çevirən: **İbrahim İLYASLI**)